**TÜRKOLOQ ALİMLƏR**

*https://doi.org/10.30546/114578.2026.3010.162*

# BAKI TÜRKOLOJİ QURULTAYI – İNSANLIĞIN ACI REKVİYEMİ

**Nazilə Abdullazadə**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/0000-0002-1829-7178*
*nazile.s.m.d.@mail.ru*

**Xülasə**

Türkologiya elminin, xüsusilə Azərbaycan dilçiliyinin öyrənilməsi, tədqiqi və inkişafı sahəsində I Türkoloji qurultayın tarixi rolu danılmazdır. 1926-cı ildə Bakıda keçirilən Türkoloji qurultay tarixi hadisə olmaqla yanaşı, yeni qurulmuş Türkiyə Cümhuriyyəti və yeni qurulmuş sovetlər imperiyasının dil, əlifba və mədəniyyət siaysətində ideoloji savaşı, yeni bir başlanğıc oldu. Slavyanlardan sonra əhali sayına görə ikinci yerdə olan türklərin XX əsrdə dil, əlifba birliyi, tarix, ədəbiyyat, mədəniyyət və terminologiya sahəsində çevriliş çağdaş türkologiyanın "ibrət dolu bir başlanğıc"ı ilə yanaşı, hüzn, kədər dolu bir insanlıq faciəsi idi.

**Açar sözlər:** türkologiya, dil, əlifba, imperiya, təqib, repressiya, acı tale.

# THE FIRST BAKU TURKOLOGICAL CONGRESS: A PAINFUL REQUIEM OF HUMANITY

**Nazile Abdullazade**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The historical role of the First Turkological Congress in the study, research, and development of Turkology − particularly Azerbaijani linguistics − is undeniable. Held in Baku in 1926, the Turkological Congress was not only a landmark historical event but also marked a new beginning shaped by the ideological struggle over language, alphabet, and cultural policy between the newly established Republic of Turkiye and the emerging Soviet imperial system. In the twentieth century, the Turks − who constituted the second largest

population group after the Slavs − experienced a profound transformation in the spheres of language and alphabet unity, history, literature, culture, and terminology. While this transformation represented a “cautionary yet formative beginning” for modern Turkology, it simultaneously embodied a tragic humanitarian catastrophe filled with sorrow and suffering.

**Key words:** turkology, language, alphabet, empire, persecution, repression, bitter fate.

## I БАКИНСКИЙ ТЮРКОЛОГИЧЕСКИЙ КОНГРЕСС – ГОРЬКИЙ РЕКВИЕМ ЧЕЛОВЕЧЕСТВА

**Назиля Абдуллазаде**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Историческая роль Первого Тюркологического Конгресса в изучении, исследовании и развитии науки тюркологии, особенно азербайджанской лингвистики, неоспорима. Тюркологический конгресс, состоявшийся в Баку в 1926-ом году, был не только историческим событием, но и новым началом идеологической борьбы между новообразованной Турецкой Республикой и новообразованной советской империей в области языка, алфавита и культурной политики. Революция в языке, алфавите, истории, литературе, культуре и терминологии турок, которые составляли вторую по численности группу населения после славян, в XX веке стала не только «уроком начала» современной тюркологии, но и человеческой трагедией, полной печали и скорби.

**Ключевые слова:** тюркология, язык, алфавит, империя, преследование, репрессия, горькая судьба.

### Giriş/Introduction

Azərbaycan ədəbiyyatı tarixində XX əsrin 30-cu illəri repressiya illəri kimi səciyyələnir. Repressiya ictimai-siyasi proses kimi siyasət, incəsənət, mədəniyyət kimi, ədəbiyyatın da üzərinə qara kölgə kimi çökmüş, həbs, sürgün, ölüm xofu ilə düşünən beyinləri, iti zəkaları məhv etmişdi. “*Repressiya maşını cəmiyyətin bütün təbəqələrini, peşə sahiblərini əhatə etsə də, yaddaşlarda əsasən şair və yazıçıların, elm və sənət adamlarının məhvi ilə yadda qalıb. Məhz bu görkəmli insanların məhvi cəmiyyətdə repressiya xofunun mahiyyəti barədə mürəkkəb, bir-birinə zidd fikirlərin, mülahizələrin söylənməsinə səbəb*

*olub*” [Əhmədov, 2010:449]. “Xalq düşməni” adı ilə xalqın tarixindən silinməyə məhkum edilən insanların taleyi bir nəslin deyil, ədəbiyyatın, elmin, incəsənətin üzünə vurulan bir damğa idi.

**Birinci Türkoloji Qurultay və onun iştirakçıları.** 1926-cı ildə keçirilmiş Birinci Türkoloji Qurultay türkologiya elmində və ümumiyyətlə, türk xalqlarının dilçilik tarixində “Türksoyun 2500 illik tarixində ilk həmrəylik – birlik məclisi”, dönüş nöqtəsi idi. Türk xalqlarının tanınmış ziyalıları ilə yanaşı, Avropa dilçilərinin də iştirak etdiyi qurultayda türk dillərinin elmi əsaslarla öyrənilməsi, ortaq əlifba məsələsi, terminoloji birlik, milli özünüdərk və mədəni dirçəliş, orfoqrafiya və yazı məsələləri gündəmə gətirilmişdir. Qurultay yalnız elmi forum deyul, milli özünüdərk və mədəni dirçəliş ideyalarının ifadə olunduğu platforma kimtürk dünyasının əsrlərlə susmuş intellektual vicdanının səsi idi.

Qurultayda iştirak edən alimlər türkoloji elmin müxtəlif sahələrini təmsil edən, türk dünyasının dilçilik, tarixşünaslıq, folklorşünaslıq və maarifçilik sahəsində ən parlaq zəkaya, yüksək elmi potensiala və milli düşüncə tərzinə malik ziyalılar idi. Onların böyük əksəriyyəti milli düşüncəyə malik, ana dilinə bağlı, mədəni müstəqillik ideyasını müdafiə edən şəxslər idi və qurultayda irəli sürdükləri fikirlər də türk xalqlarının dil və mədəniyyət məsələlərinə elmi yanaşmanın formalaşmasına yönəlmişdi. Keçmiş SSRİ-nin hər yerindən məşhur türkoloqlar − akad. S.Oldenburq, akad. V.Bartold, akad. S.Oldenburq, prof. A.Samoyloviç, prof. S.Rudenko, L.Şerba, V.Tomaşevski, M.F.Köprülüzadə.... ilə yanaşı, Azərbaycandan 22 nəfər nümayəndə konfransın işində qurultay üzvü olaraq iştirak etmişdir. Qurultayda həmçinin SSRİ MİK-nin sədri Q.Musabəyov, RSFSR Xalq Maarif Komissarlığının nümayəndəsi İ.Noqovitsin və digər ictimai təşkilatların üzvləri iştirak etmişlər [ətraflı bax: Babayev, 2016:55-61].

**Qurultaydan sonra dəyişən siyasi reallıq.** 1926-cı ildə Bakıda keçirilmiş I Bakı Türkoloji Qurultayı türkologiyanın elmi əsaslarının möhkəmləndirilməsi və türk xalqları arasında intelektual əlaqələrin genişlənməsi baxımından mühüm mərhələ idi. Lakin sonrakı illərdə − 1930-cu illərin sonlarına doğru sovet ideoloji aparatının kəskin şəkildə sərtləşməsi bu prosesin qarşısını alır və qurultayın ideya daşıyıcıları müxtəlif ittihamlarla təqib olunur.

Türk xalqlarının tarixinin, dilinin və mədəni irsinin öyrənilməsi ideoloji nəzarət altına alınır. Bir sıra tarixi faktlar və mədəni dəyərlər ya qadağan edildi, ya da təhrif olunmuş şəkildə təqdim edilir. Bu vəziyyət mədəni yaddaşın təbii inkişafını əngəlləyir, nəsillərarası bilik ötürülməsində ciddi fasilələr yaranır.

Xüsusilə yazılı mənbələrin məhv edilməsi və ya istifadədən çıxarılması milli yaddaşın zəifləməsinə səbəb olur. Türkoloji fəaliyyət "pantürkizm", "millətçi", "xalq düşmənçiliyi" kimi saxta ittihamlarla əvəz edilir. Qurultayda fəal iştirak etmiş bir çox alimlər "antisovet fəaliyyət"ə görə əsassız ittihamlarla təqib olunur, bəziləri güllələnir, bəziləri sürgünə göndərilir, bəziləri isə elmi fəaliyyətindən məhrum edilir. Türkoloji elmin aparıcı simaları fiziki və mənəvi cəhətdən məhv edilir, elmi fəaliyyətləri kəskin şəkildə məhdudlaşdırılır. Qurultayda səslənən ideyalar susdurulur, lakin yox edilmir.

Repressiya dalğası xüsusilə 1937-1938-ci illərdə kulminasiya nöqtəsinə çatır; türk xalqlarının tarixi, dili və mədəni irsinin araşdırılması sovet ideologiyası tərəfindən potensial "millətçilik", "pantürkizm" və "antisovet meyillər" kimi qiymətləndirilir, nəticədə bir çox görkəmli alim repressiya maşınının qurbanına çevrilir. B.Çobanzadə 1937-ci ildə "pantürkist təşkilatın üzvü" kimi ittiham olunaraq həbs edilir və güllələnir. Azərbaycanda ikidilli lüğətlərin tərtibinin ilk təşəbbüskarı, türk alimi İsmayıl Hikmətin Bakıda kitabının buraxılmasına icazə verən Ruhulla Axundov istiniaq zamanı vəhşicəsinə döyülərək Moskvanın qərarı ilə oradaca güllələnir. Azərbaycanda pedaqoji təhsilin inkişafında misilsiz xidmətləri olan Pənah Qasımov zorakılıq və işgəncələrə dözə bilməyib həbsxanadaca ölür. Xalqımızın şifahi yaradıcılıq nümunələrinin toplanmasında fədakarlıq göstərən ədəbiyyatşünas alim Hənəfi Zeynallı da zəkasının, ədəbiyyata vurğunluğunun qurbanı olur, güllələnir. Əhməd bəy Pepinov, qurultayın yeganə azərbaycanlı qadın nümayəndəsi Ayna Sultanova, Həmid Sultanov, Mirzə Hüseynov, universitet müəllimi Cəlil Məmmədzadə, pedaqoq Müseyib İlyasov, maarif xadimi Hüseyn Musayev, dilçilik və ədəbiyyatşünaslığa qısa ömür müddətində 10 kitab bəxş etmiş Vəli Xuluflu, dilçi-alim Abdulla Ağazadə, qurultayın rəyasət heyətinin üzvü Həbib Cəbiyevin günahı o qədər böyük, şəxsiyyətləri o qədər təhlükəli idi ki, yerli ölüm dəyirmanının üyüdə bilmədiyi cəzanı Moskva – SSRİ Ali Məhkəməsi verir.

Qurultayda ideoloji baxımdan mühüm rol oynayan türkçü ideoloq, "türkləşmək, islamlaşmaq, müasirləşmək" konsepsiyası "təhlükəli milli platforma" kimi qiymətləndirilən Əli bəy Hüseynzadə repressiyanın qurbanı olmasa da, sovet sistemində adı və ideyaları yasaqlanır. Türk kimliyi və tarixi mövzulara müraciəti səbəbilə sürgünə göndərilən Hüseyn Cavidin taleyi milli-mədəni düşüncəyə qarşı yönəlmiş ideoloji siyasətin tərkib hissəsi idi. Əhməd Cavad, Əbülfəz Qarayev, Dadaş Bünyadzadə, Mustafa Quliyevlə yanaşı, qurultayda iştirak etmiş bir sıra qazax, başqırd, tatar və özbək ziyalıları, Samoyloviç, Zifeld, Xalid Xocayev kimi dilçi-alimlər 1937-1938-ci illərdə

"millətçilik", "pantürkizm", "antisovet təşkilat"ın üzvü kimi ittihamlarla güllələnir, sürgün edilir, əsərləri yandırılır. Onların fəaliyyəti yalnız fərdi talelərin faciəsi deyil, bütövlükdə türkoloji elmin inkişafına vurulan ağır zərbə olur. Türkoloji düşüncə yalnız elmi istiqamət kimi deyil, həm də milli özünüdərk forması kimi qəbul edildiyindən sistemli şəkildə boğulmağa məruz qalır.

*"Əslində Türkoloji Qurultayın bütün iştirakçıları nəzarət altında idi. Sən demə, "Yuxarılar" Türkoloji Qurultayı keçirmək icazəsi verəndə bir məsələni də nəzərdə tuturmuşlar: görək türkləri başına buraxsan özlərini necə apararlar? Qurultayda isə Türkçülük-Türksevərlik özünü aydınlığı ilə göstərdi. Azərbaycan cəza orqanının başına xalqımızın qəddar düşmənləri dayanırdı*" [Babayev, 2006:171]. Sovet ideologiyasının məqsədi təkcə siyasi müxalifəti aradan qaldırmaq deyildi; bu sistem həm də tarixi yaddaşı yenidən qurmağa, milli düşüncə modellərini dəyişdirməyə və türk xalqları arasında mədəni bağları zəiflətməyə çalışırdı. Əslində 30-cu illər repressiyası ayrı-ayrı şəxslərə qarşı deyil, elm, dilçilik, ədəbiyyatşünaslıq məktəbinə, türkoloji elmə qarşı çevrilmişdi. Türkologiyada ciddi boşluq yarandı, milli yaddaş zədələndi, elmdə sistemlilik və ardıcıllıq qırıldı. Bu faciəvi talelər bir daha göstərdi ki, elm totalitar sistemdə (xüsusilə türkdilli xalqların elmi) təhlükəlidir.

Elmin bayramı kimi başlanan Türkoloji qurultay bir neçə il sonra insanlığın acı rekviyeminə çevrildi.

**Nəticə/Conclusion**

I Bakı Türkoloji Qurultayı türk xalqlarının elmi və mədəni tarixində təkcə mühüm elmi hadisə deyil, həm də milli özünüdərk prosesinin parlaq ifadəsi kimi qiymətləndirilməlidir. Qurultay türkoloji düşüncənin sistemli şəkildə formalaşmasına, ortaq elmi prinsiplərin müəyyənləşdirilməsinə və türk xalqları arasında intellektual əlaqələrin möhkəmlənməsinə xidmət etmiş olsa da, bu elmi yüksəliş totalitar sovet ideologiyasının sərt repressiya siyasəti ilə üz-üzə qalmışdır.

Qurultaydan sonra baş verən repressiyalar türkoloji elmin aparıcı nümayəndələrinin fiziki və mənəvi məhvi ilə nəticələnmiş, elmi fikir zorakılıq yolu ilə susdurulmuşdur. Bu proses yalnız ayrı-ayrı alimlərin taleyində faciə yaratmamış, bütövlükdə türk xalqlarının mədəni yaddaşına ciddi zərbə vurmuşdur. Elmi ardıcıllığın pozulması, mədəni kontingentin qırılması və tarixi yaddaşın təhrif edilməsi repressiyaların ən ağır nəticələri sırasında yer almışdır.

Bununla belə, repressiya siyasəti türkoloji düşüncəni tamamilə məhv edə bilməmişdir. Qurultayda səslənən ideyalar uzun müddət susdurulsa da, zaman keçdikcə yenidən elmi dövriyyəyə daxil olmuş, müasir türkoloji tədqiqatların ideya əsaslarından birinə çevrilmişdir. Bu fakt elmi fikrin zorakılıq qarşısında belə davamlı olduğunu və tarixi proseslərdə öz yerini qoruyub saxladığını göstərir.

Beləliklə, I Bakı Türkoloji Qurultayının taleyi elmin, milli kimliyin və mədəni yaddaşın totalitar ideologiya ilə toqquşmasının bariz nümunəsidir. Elmin bayramı kimi başlayan bu qurultay sonradan repressiya ilə insanlığın acı rekviyeminə çevrilsə də, onun elmi və mənəvi irsi bu gün də türk xalqlarının mədəni yaddaşında yaşayır və gələcək nəsillər üçün dəyərli dərs olaraq qalır

## ƏDƏBİYYAT/REFERENCES

1. Babayev, A. (2016). Birinci Türkooji Qurultay və Azərbaycanda türkologiya. – Bakı: "Elm". – 336 s.
2. Əhmədov, B. (2010). Ədəbiyyat və repressiya: araşdırma və dəyərləndirmənin bəzi metodoloji problemləri // Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri-metodoloji məsələləri Beynəlxalq elmi konfransın materialları. – Bakı: "Elm". – s.447-465.
3. Qasımov, C. (2019). I Türkoloji Qurutay: şahidlər və şəhidlər. − Bakı: "Gənclik". – 735 s.
4. Qasımov, C. (2020). Siyasi repressiya: həyatda və ədəbiyyatda. − Bakı: "Elm və təhsil". – 508 s.
5. I Türkoloji Qurultay: görünən və görünməyən tərəflər (2016). Elmi sessiyanın materialları (10 iyun 2016-cı il). − Bakı: "Elm və təhsil". − 100 s.
6. Агаев, А. (1990). Тюркология и проблемы национального самосознания. − Москва: Наука. − 176 с.
7. Алиев, Р.А. (2005). Азербайджанская интеллигенция и репрессии 1930-х годов. − Баку: "Элм". – 243 с.

**Məqalə tarixçəsi**
*Daxil olub* *14.01.2026*
*Qəbul edilib* *30.01.2026*
*Nəşrə tövsiyə edib* *Adil Babayev*
*filologiya elmləri doktoru, professor*